AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 43 (1388), 16 - 22 oktyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



# Lənkəran Olimpiya İdman Kompleksi istifadəyə verilib

Oktyabrın 15-də Lənkəran Olimpiya İdman Kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Lənkəran Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Gənclər və idman naziri Azad Rəhimov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2013-cü ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Lənkəran Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 15 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycan idmançılarının Buenos-Ayresdəki uğurlu çıxışları davam edir



Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunları davam edir. Komandamıza növbəti qızıl medalı Azərbaycan güləşçisi Turan Bayramov qazandırıb. Olimpiadada 65 kiloqram çəki dərəcəsində mübarizə aparan sərbəst güləşçimiz "A" qrupunda yarışıb. Dünya və Avropa çempionu ilk görüşdə Yeni Zelandiya təmsilçisi Tahi Pehi Eynsli Uesterlini elə ilk hissədə çətinlik çəkmədən məğlub edib. İdmançımız Pakistan güləşçisi İnayət Ullaha da asanlıqla qalib gəlib və "A" qrupunda birinci yeri tutub.

Olimpiadanın finalına vəsiqə qazanan güləşçimiz qızıl medal uğrunda görüşdə "B" qrupunun qalibi olan iranlı pəhləvan Məhəmməd Baqi Kərimiseyfabad ilə qarşılaşıb. Rəqibini məğlub edən Turan Bayramov Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qalibi adını qazanıb.

*(ardı 2-ci səhifədə)*

## Atletlərimizin "Tokio-2020" Yay Paralimpiya Oyunlarına hazırlığı müzakirə olunub

Milli Paralimpiya Komitəsində (MPK) atletika idman növü üzrə Paralimpiya millimizin üzvlərinin iştirakı ilə iclas keçirilib.

MPK-nın prezidenti İlqar Rəhimovun rəhbərliyi altında iclasa atletika idman növü üzrə milli komandanın baş məşqçiləri, şəxsi məşqçilər və idmançılar qatılıblar.

İclasda 2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar məşqçi və idmançıların məlumatları dinlənilib, görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Müzakirələrin yekunu olaraq müvafiq qərarlar qəbul olunub.

## *Bədii gimnastımız gümüş medala layiq görüldü*

Bədii gimnastımız Fatimə Əkbərova Çexiyanın Brno şəhərində keçirilən beynəlxalq turnirdə gümüş medala layiq görülüb. Yarışlarda ümumilikdə, böyüklər və gənclər proqramı üzrə 18 ölkənin təmsilçiləri qüvvələrini sınayıblar.

Gənclər arasında mübarizə aparan Fatimə Əkbərova təsnifat mərhələsində hər 4 alət üzrə çıxış edərək finala vəsiqə qazanıb. Əsas mərhələdə isə lentdə çıxışına görə hakimlərdən 14.550 xal alan bədii gimnastımız yarışların gümüş medalla başa vurub.

Yığma komandamızın digər üzvü, böyüklər proqramında çıxış edən Darya Sorokina isə ən yaxşı çıxışın gürzlərlə icra edərək, 5-ci pillədə qərarlaşıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

İdman kompleksləri yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafına xidmət edir Səh. 5

**Dünya kubokunun mərhələ yarışında 600-dək idmançının iştirakı gözlənilir** Səh. 2

*Mütəxəssislərin Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında təmsilçilərimizin çıxışları barədə fikirləri* Səh. 3

*Avropa kubokunun finalında iki medal* Səh. 7

**Samboçularımız dünya birinciliyini beş medalla başa vurublar** Səh. 7

**BUENOS-AYRES-2018**

Yeniyetmələrin III Yay Olimpiya Oyunları

*"Olimpiya dünyası" qəzetinin foto-obyektivində* Səh. 4

# *Olimpizm*

## *2022-ci ildə Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarına Seneqal ev sahibliyi edəcək*



Yeniyetmələrin IV Yay Olimpiya Oyunları 2022-ci ildə Seneqalda təşkil olunacaq. Bu barədə qərar Beynəlxalq Olimpiya Komitəsinin (BOK) sessiyasında yekdilliklə qəbul edilib. Afrika qitəsi ilk dəfə olaraq Yeniyetmələrin Yay Olimpiadasına ev sahibliyi edəcək.

BOK-un İcraiyyə Komitəsinin komissiyası Seneqalın namizədliyini irəli sürən digər Afrika ölkələrindən - Tunis, Nigeriya və Botsvananın bu təklifini yüksək qiymətləndirib. Komissiyanın üzvlərinin fikrincə, Seneqalın təqdim etdiyi layihə daha ambisiyalı, texniki cəhətdən təminatlıdır və bu ölkədə gənclər və idman siyasətinin inkişafına töhfə verəcək.

Qeyd edək ki, Olimpiada Seneqalın tarixi paytaxtı Dakarda, yeni salınmış Diamniadio şəhərində və Sali sahillərində təşkil olunacaq.

Artıq Dakarda keçiriləcək Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarının büdcəsi də açıqlanıb. Dakar-2022-nin büdcəsi ilkin hesablamalara görə, təxminən 150 milyon dollar olacaq. Bu barədə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Olimpiya Oyunları üzrə icraçı direktoru Kristof Dyubi mətbuat konfransında məlumat verib. "Biz Dakar Olimpiadasının büdcəsinin 150 milyon dollar olacağını gözləyirik", - deyə K.Dyubi bildirib.

Məlumat üçün bildirək ki, Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının büdcəsi 200 milyon dollar təşkil edir.

## *2026-cı ildə Qış Olimpiya Oyunlarına namizəd şəhərlərin adları açıqlanıb*

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil edilmiş sessiyasında 2026-cı ildə Qış Olimpiya Oyunlarını keçirməyə namizəd şəhərlərin adları açıqlanıb.

Kanadanın Kalqari, İsveçin Stokholm, İtaliyanın Milan və Kortina-d'Ampetstso şəhərlərinin namizədliyi təsdiqlənib.

Türkiyənin Ərzurum şəhərinin namizədliyi isə BOK tərəfindən qəbul olunmayıb.

Ağ olimpiadaya ev sahibliyi edəcək şəhərin adı 2019-cu ildə müəyyənləşəcək. Qeyd edək ki, Stokholm Olimpiya Oyunlarına 1912-ci, Kortina-d'Ampetstso 1956-cı, Kalqari isə 1988-ci ildə ev sahibliyi edib.

## *BOK Beynəlxalq Sumo Federasiyasını tanıyıb*

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Beynəlxalq Sumo Federasiyasını (BSF) tanıyıb. Qərar BOK-un Argentinada keçirilən sessiyasında qəbul olunub. BOK-un hesabatında BSF-yə 84 milli federasiyanın üzv olduğu, həmçinin hazırda 40 min peşəkar idmançının sumo ilə məşğul olduğu qeyd olunub.

BSF 1992-ci ildə yaradılıb və federasiyaya yaponiyalı Heditosi Tanaka rəhbərlik edir.

# Lənkəran Olimpiya İdman Kompleksi istifadəyə verilib

(əvvəli 1-ci səhifədə)

Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə idmançıların ixtiyarına verilən sayca 44-cü Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi altı hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Diqqətə çatdırıldı ki, 788 tamaşaçı yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Əlli üç yerlik mehmanxananın üçmərtəbəli binasında idmançıların qalması və istirahəti üçün hər cür imkan var. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VIP otaqlar və 70 yerlik konfrans zalı mövcuddur.

Lənkəran Olimpiya İdman Kompleksinin ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 90 tamaşaçı yeri var. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb.

Qeyd edildi ki, Lənkəran Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 135 nəfər izləyə biləcək. Müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1300-ə qədər tamaşaçı izləyəcək. Burada mini futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları idmanseverlərə dəyərli töhfədir. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.






## Dünya kubokunun mərhələ yarışında 600-dək idmançının iştirakı gözlənilir

Azərbaycanın 2020-ci ildə Qəbələdə təşkil olunacaq güllə atıcılığı üzrə Dünya kubokunun mərhələ yarışına ev sahibliyi ilə bağlı oktyabrın 11-də mətbuat konfransı keçirilib. Bakı Atıcılıq Mərkəzində keçirilən tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov belə mötəbər yarışların respublikamızda keçirilməsinin Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının göstəricisi olduğunu vurğulayıb: “Belə mötəbər idman növünə ev sahibliyi etmək çox qürurvericidir. 2020-ci ildə Azərbaycan bir neçə böyük idman yarışına ev sahibliyi edəcək. Onlardan biri də güllə atıcılığı üzrə Dünya kubokunun mərhələ yarışıdır. Ümumiyyətlə, ölkəmizdə idmanın bu növünün inkişafı üçün əlverişli şərait yaradılıb, maddi-texniki baza ən yüksək tələblərə cavab verir”.

Atıcılığın Azərbaycanda ən populyar idman növlərindən hesab edildiyini deyən İsmayıl İsmayılov bildirib ki, ölkəmizdə idmanın bu növü üzrə Olimpiya və Avropa çempionları var. Azərbaycanda atıcılıq idmanı üçün iki Olimpiya kompleksi mövcuddur. Mütəmadi olaraq, Qəbələdəki Atıcılıq Mərkəzində Qran-Pri yarışları keçirilir. Son bir neçə ildə Azərbaycan dünya səviyyəli atıcılıq yarışlarına ev sahibliyi edib.

Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti, Bakı Atıcılıq Mərkəzinin direktoru Bəyəli Hacıyev gənclərin bu idman növünə marağının atmasını vurğulayaraq, ölkəmizdəki atıcılıq komplekslərinin imkanlarından bütün vətəndaşların yararlanması üçün şəraitin yaradıldığını qeyd edib. Bakı Atıcılıq Mərkəzinin fəaliyyəti barədə məlumat verən B.Hacıyev diqqətə çatdırıb ki, 2015-ci ildə istifadəyə verilən bu möhtəşəm kompleks I Avropa, IV İslam Həmrəyliyi Oyunlarına, atıcılıq üzrə Dünya kuboku mərhələsinə və Avropa çempionatına yüksək səviyyədə ev sahibliyi edib.

Federasiyanın baş katibi Emin Cəfərov Dünya kubokunun mərhələ yarışının Azərbaycanda keçirilməsi barədə qərarın avqustda Beynəlxalq İdman Atıcılıq Federasiyasının (ISSF) İcraiyyə Komitəsinin Vyanada təşkil olunan toplantısında qəbul edildiyini deyib. Qeyd edilib ki, ISSF hər il stend və güllə atıcılığının hər biri üzrə dörd Dünya Kuboku mərhələ yarışı keçirir. Bu Dünya kuboku yarışlarından ikisi birlikdə, digər ikisi isə ayrı-ayrılıqda keçirilir. Bu yarışa ümumilikdə 15 şəhər 2020-ci ildə ISSF Dünya kuboku yarışlarını keçirməyə can atıb. Dünya kuboku yarışlarına ev sahibliyi hüququ belə yarışların təşkilində təcrübəsi olan və bütün beynəlxalq standartlara cavab verən komplekslərə malik ölkələrə verilir. Azərbaycanda beynəlxalq standartlara tam cavab verən iki atıcılıq kompleksinin olduğu və 2014-cü ildən etibarən ölkəmizdə mütəmadi keçirilən mötəbər turnirlərin yüksək səviyyədə təşkili nəzərə alınaraq, Dünya kubokunun mərhələ yarışının Qəbələdə keçirilməsi qərara alınıb. Yarışın əsas təşkilatçısı kimi, Azərbaycan Atıcılıq Federasiyası təyin olunub. Bu, Tokio Olimpiadasından əvvəl keçiriləcək sonuncu Dünya kuboku yarışı olacaq. İyunun 19-27-də təşkil ediləcək yarışda 70-dən çox ölkədən 600-dək idmançının iştirakı gözlənilir. Onların arasında tanınmış atıcılar, dünya və Avropa çempionları, Olimpiya Oyunlarının qalibləri olacaq. Atletlər güllə atıcılığının on Olimpiya növündə mübarizə aparacaqlar.




# Azərbaycan idmançılarının Buenos-Ayresdəki uğurlu çıxışı davam edir



(əvvəli 1-ci səhifədə)

Güləş yarışlarında mübarizə aparan digər idmançımız Şahanə Nəzərova isə yarışların bürünc medalına sahib çıxıb. B qrupunda yer alan güləşçimiz ilk qarşılaşmada braziliyalı rəqibinə vaxtından əvvəl qalib gəlib (11:0). Şahanə Nəzərova ikinci görüşündə nigeriyalı güləşçini 6:0 hesabı ilə məğlub edib. Növbəti mərhələdə Şahanə son dünya çempionatının finalında uduzduğu amerikalı güləşçi ilə qarşılaşıb və bu dəfə də rəqibi ilə bacarmayıb (2:12).

Ruhdan düşməyən Şahanə Nəzərova qrupdakı son qarşılaşmasında fransalı rəqibinə qalib (3:0) gələrək B qrupunu ikinci yerdə tamamlayıb. Nəticədə həmyerlimiz bürünc medal uğrunda yarışda A qrupunda ikinci pillədə qərarlaşan Monqolustan təmsilçisi ilə üz-üzə gəlib. Gərgin mübarizə şəraitində keçən görüşdə rəqibinə 7:6 hesabı ilə qalib gələn Şahanə “Buenos-Ayres-2018-in bürünc medalını qazanıb.

### Ağırlıqqaldırma

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının ağırlıqqaldırma yarışında mübarizə aparan idmançımız Tərmenxan Babayev komandamıza gümüş medal qazandırıb. 85 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan atletimiz birdənqaldırma hərəkətində 142 kiloqramı ram edib və bu hərəkətdə ikinci olub. O, təkanla qaldırma hərəkətində 174 kiloqramın öhdəsindən gələrək ikinci yeri tutub. Yekunda 316 kiloqram (142 kq + 174 kq) nəticə göstərən Tərmenxan Babayev Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gümüş medalına layiq görülüb.

Ağırlıqqaldırma yarışlarında ölkəmizi təmsil edən digər idmançımız Lalə Rzazadə isə mükafatçılar sırasına düşə bilməyib. 58 kq çəki dərəcəsində yarışan Lalə birdənqaldırma hərəkətində 67 kq-ı ram edərək bu hərəkətdə 6-cı yeri tutub. Təkanla qaldırma hərəkətində isə o, 80 kq-ın öhdəsindən gəlməyi bacarıb və bu hərəkətdə də 6-cı olub. Lalə Rzazadə ümumilikdə 147 kq (67+80) nəticə göstərərək yekun sıralamada 6-cı yeri tutub.

### Taekvondo

Buneos-Ayres-2018 çərçivəsində keçirilən taekvondo yarışlarında iki idmançımız medallar uğrunda mübarizə aparıb. Təmçilçilərimizdən yalnız Cavad Ağayevin çıxışı uğurlu olub. 63 kq çəki dərəcəsində qüvvəsini sınayan Cavad Ağayev bürünc medal əldə edib. İdmançımız ilk görüşündə cənubi sudanlı Stefan Atemə, 1/4 finalda iranlı Hamed Əsgəri Mahiabadinə qalib gələrək yarımfinala adlayıb. Bu mərhələdə Cənubi Koreyadan olan idmançı Ço Vun Huya uduzan C.Ağayev bürünc medalla kifayətlənib.

### Gimnastika

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gimnastika yarışlarında Azərbaycanı idman gimnastı Səməd Məmmədli və bədii gimnastımız Yelizaveta Luzan təmsil edib. Oyunlarda gənc gimnastımız Yelizaveta Luzan komanda hesabında qızıl medal qazanıb. Olimpiya Oyunlarının yeni formatına əsasən, gimnastika növləri üzrə təmsilçilər yalnız fərdi hesabda mübarizə aparmayıblar. Bu dəfə onlar ulduz gimnastların adlarını daşıyan 12 komandaya bölünüblər.

Dördqat Olimpiya çempionu Simona Baylzın komandasında Yelizaveta Luzan ilə yanaşı, idman gimnastikası, bədii gimnastika, batut və akrobatika növləri üzrə Bolqarıstan, Avstraliya, Çin, Sinqapur, Vyetnam, İspaniya, İtaliya, Rusiya, Ukrayna, Cənubi Afrika və Macarıstandan olan idmançılar yer alıblar. Onlar fərdi çıxışlarının yekunlarına görə əldə etdikləri xal hesabı ilə komandalarına qızıl medal qazandırıblar. Beləliklə, bədii gimnastımız Yelizaveta Luzanın komanda yarışlarında qazandığı qızıl medal qarışıq yığmaların hesabına yazılıb.

Ölkəmizi idman gimnastikası yarışlarında təmsil edən Səməd Məmmədli isə mükafatçılar sırasına düşə bilməyib.

### Stolüstü tennis

Yeniyetmələrin III Yay Olimpiya Oyunları çərçivəsində keçirilən stolüstü tennis yarışları komandamız üçün başa çatıb. Bu idman növü üzrə yarışlarda ölkəmizi Ninq Jinq və Yu Xinhanq təmsil edib. Təəssüf ki, hər iki idmançımızın çıxışı uğurlu alınmayıb. İlk görüşündə rumıniyalı tennisçi Andrea Draqomana qalib gələn (4:2) təmsilçimiz 1/8 final mərhələsinə vəsiqə qazanıb. Bu mərhələdə idmançımızın rəqibi Puerto-Riko təmsilçisi Adriana Diaz olub. Xanım tennisçimiz rəqibini 4:1 hesabı ilə məğlub edərək 1/4 final mərhələsinə yüksəlib. Lakin idmançımız bu mərhələdə hindistanlı Kamat Arkana Girişə 3:4 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

Oğlanların mübarizəsində çıxış edən təmsilçimiz Yu Xinhanq isə elə ilk görüşdə rumıniyalı Kristian Pleteaya məğlub olaraq mübarizəni dayandırıb.

Komanda yarışlarında isə tennsiçilərimiz 1/4 finalda Yaponiya komandasına məğlub olaraq mükafatçılar sırasına düşə bilməyib.

### Üzgüçülük

Buenos-Ayres-2018-in üzgüçülük yarışlarında komandamız bir atletlə təmsil olunub. Oyunlarda ölkəmizin idman şərəfini IV İslam Həmrəyliyi Oyunlarının ikiqat bürünc mükafatçısı Fatimə Alkərəmova qoruyub. 200 metr sərbəst üsulla üzgüçülük yarışlarında çıxış edən idmanıçmız mükafatçılar sırasına düşə bilməyib.

### Atletika

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının atletika yarışları da artıq idmançılarımız üçün başa çatıb. Komandamız bu yarışlarda 2 idmançı ilə mübarizə aparıb. Yığmamızı 100 m məsafəyə qaçış yarışlarında Fəxriyə Tağızadə, üçtəkanla tullanma yarışlarında isə Rüstəm Məmmədov təmsil edib. Atletlərimiz yarışları mükafatsız başa vurublar.

### Boks

Oktyabrın 14-də Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında boksçuların mübarizəsinə start verilib. Bu idman növü üzrə ilk yarış günündə Azərbaycan yığmasının hər 2 idmançısı rinqə çıxıb.

Yığmamızın bayraqdarı, Avropa çempionu Nurlan Səfərov ilk döyüşünü kanadalı Spenser Volcoksa qarşı keçirib. 60 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan həmyerlimiz gərgin keçən qarşılaşmada qələbə qazanıb. Bu qələbə Nurlan Səfərovu yarımfinala yüksəldib.

Digər boksçumuz Nicat Həsənovun (69 kq) da Buenos-Ayres-2018-də debütü uğurlu alınıb. Avropa çempionatının gümüş medalçısı Amerika Samoasını təmsil edən Falaniko Tautaya qalib gələrək, yarımfinalda iştirak etmək hüququ qazanıb.

Bu gün hər iki boksçumuz yarımfinal döyüşünə çıxacaq.

Qeyd edək ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının boks yarışları 4 gün davam edəcək.

İdmançılarımızın çıxışlarını Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov və ölkəmizin nümayəndə heyətinin digər üzvləri də izləyiblər.




*Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında mükafat qazanan idmançılar və onların məşqçiləri qələbə sevinclərini “Olimpiya dünyası” qəzeti ilə bölüşüblər.*

## “Qalib gələcəyimə inanırdım”

***Turan Bayramov (Buneos-Ayres-2018-in qızıl mükafatçısı):***

- Sevincimin həddi-hüdudu yoxdur. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının qızıl medalını qazandığım və himnimizi səsləndirdiyim üçün çox xoşbəxtəm. Yarışlara çox ciddi hazırlaşmışdım və qalib gələcəyimə inanırdım.



Olimpiadaya hazırlaşmağımda mənə kömək edən, hərtərəfli dəstək olan insanlara öz minnətdarlığımı bildirirəm. Azərbaycan Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə, Azərbaycan Güləş Federasiyasına yaratdıqları imkan və şəraitə görə təşəkkür edirəm. Olimpiadanın qızıl medalını qazanmağımda onların rolu böyükdür.

## “Turan güclü idmançı olduğunu Olimpiya Oyunlarında bir daha sübuta yetirdi”

***Əsgərxan Novruzov (Yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi):***

- Olimpiadaya 2 ildir ki, hazırlaşırdıq. Şükür ki, çəkilən zəhmət hədər getmədi və Turan Bayramov yarışları Olimpiya çempionu kimi başa vurdu. Turan bu il həm dünya, həm də Avropa çempionatında qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsində qərar tutmuşdu. Turan güclü idmançı olduğunu Olimpiya Oyunlarında da öz qələbə əzmi ilə bir daha sübuta yetirdi. Finalda güclü rəqibi olan İran təmsilçisinə qalib gələrək adını tarixə yazdırmağı bacardı.

Bu qələbə münasibətilə başda ölkə rəhbəri İlham Əliyev olmaqla bütün Azərbaycan xalqını təbrik edirik. Eləcə də, federasiyanın rəhbərliyinə, Turanın uğurunda əməyi keçən məşqçilərə, ümumiyyətlə, məşqçilər korpusuna minnətdarlığımızı bildiririk.

## “Çalışacağam ki, gələcək yarışlarda da mənə bəslənən ümidləri doğruldum”



***Tərmenxan Babayev (Buneos-Ayres-2018-in gümüş mükafatçısı):***

- Yarışlara çox yaxşı hazırlaşmışdım. Əsas rəqibim italiyalı atlet idi. Onunla müqayisədə, əvvəlcə, az çəki sifariş vermişdim. Lakin sonradan çəkini artırdım. Təəssüf edirəm ki, hədəfim qızıl medal olsa da, gümüş medala layiq görüldüm. Bacardığımı etdim. Olimpiya Oyunları kimi mötəbər yarışlarda mükafatçılar sırasına düşməyin özü də uğurlu nəticədir. Üzərimdə əziyyəti olan hər kəsə, federasiya rəhbərliyinə, məşqçilər heyətinə minnətdarlığımı bildirirəm. Çalışacağam ki, gələcək yarışlarda da mənə bəslənən ümidləri doğruldum.

## “Yeniyetmələrin Yay Olimpiya Oyunları dünya və Avropa birinciliklərindən çox fərqlənir”

***Asif Məmmədov (Ağırlıqqaldırma üzrə yığma komandanın baş məşqçisi):***

- Bildiyiniz kimi, olimpiadada rəqiblər heç vaxt asan olmur. Sona qədər mübarizə aparmaq, qalib gəlmək üçün var gücünü ortaya qoymaq lazımdır. Bura gələndə də qeyd etmişdim ki, əyarından asılı olmayaraq, istənilən medal bizim üçün yaxşı nəticə olacaq. Təəssüf ki, atletlərimizdən Lalə Rzazadə mükafatçılar sırasına düşə bilmədi. O, ümumilikdə 147 kq (67 kq + 80 kq) nəticə göstərərək bu çəkinin yekun sıralamasında 6-cı yeri tutdu. Bununla belə Laləni Olimpiya Oyunlarında iştirakına görə təbrik edirəm. İnanıram ki, Lalə Rzazadə gələcək yarışlarda ona bəslənən ümidləri doğruldacaq. Digər təmsilçimiz Tərmenxan Babayev isə 85 kq çəki dərəcəsində gümüş medal qazanaraq hər birimizi sevindirdi. Bu nəticə onun və biz məşqçilərin çəkdiyi əziyyətlər sayəsində əldə olundu. Yeniyetmələrin Yay Olimpiya Oyunları dünya və Avropa birinciliklərindən çox fərqlənir. Yarışların proqramı demək olar ki, böyüklərin proqramı ilə eynidir. Yəni heç bir fərqi yoxdur. Qeyd etdiyim kimi, Oyunlarda qızıl medal üçün mübarizə aparırdıq. Lakin gümüş medalı da komandamız üçün uğurlu hesab etmək olar. Tərmenxan da yaxşı çıxış etdi. Onun çıxışından razı qaldım. İnanıram ki, o, gələcək yarışlarda da yeni qələbələri ilə bizi sevindirəcək.

## “Buenos-Ayres-2018-də ölkəmizə növbəti medalı qazandırdığım üçün çox xoşbəxtəm”

***Cavad Ağayev (Buneos-Ayres-2018-in bürünc mükafatçısı):***

- Mübarizəyə başlayanda həddən artıq həyəcanlı idim. Çünki buna qədər rəqiblərim bir görüşdə iştirak etmişdilər. İlk görüşdə mən cənubi sudanlı Stefen Çol Atemlə qarşılaşmalı idim. Lakin o, bu mərhələdə çıxış etmədi. Buna görə də mən birbaşa yarımfinala vəsiqə əldə etdim. İranlı rəqibim Hamed Aşqari bu çəki dərəsində ən güclü idmançılardan sayılırdı.



Amma onun uğurlarından çəkinmədim. Sona qədər döyüşdüm. Başa-baş mübarizədə ona bir xal fərqi ilə qalib gəldim. Bununla da özüm üçün ən azı bürünc medalı təmin etdim. Yarımfinalda qalib gəlmək üçün bütün qüvvəmi topladım. Koreyalı Ço Von Hi ilə qarşılaşmada qızıl medalı əldən verdim. Buna baxmayaraq, Buenos-Ayres-2018-də ölkəmizə növbəti medalı qazandırdığım üçün çox xoşbəxtəm. Fürsətdən istifadə edib, məni yarışda dəstəkləyən nümayəndə heyətinə və azarkeşlərə təşəkkürümü bildirirəm”.

## “Taekvondoçumuzun Buenos-Ayres-2018-də bürünc medal qazanması böyük nəticədir”

***Məmməd Abdullayev (Taekvondo üzrə gənclərdən ibarət yığma komandamızın baş məşqçisi):***

- Taekvondoçumuz Cavad Ağayevin Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında bürünc medal qazanması böyük nəticədir. Həmin medal gümüş və ya qızıl da ola bilərdi. Lakin idmançımız çempionluq şansını son saniyələrdə əldən verdi. Cavadın qalib gəldiyi iranlı idmançı uğurları ilə tanınır. Belə ki, son yarım ildə Hamed Aşqari bütün yarışları məğlubiyyətsiz başa vurub. O, dünya çempionu və bu olimpiadaya vəsiqə verən yarışın qalibidir. Belə bir rəqibi mübarizədən kənarlaşdırmaq özü yaxşı nailiyyətdir. Cavadın böyük gələcəyi var. O, qarşıdakı yarışlarda daha çox uğurlar qazanmaq əzmindədir. Sevinirik ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yığma komandamıza medal bəxş edən idman növləri arasında taekvondonun da adı var. Dörd il əvvəl Nankində təşkil olunan analoji yarışlarda taekvondoçularımız bir qızıl və bir gümüş medal əldə etmişdilər. Bu, o deməkdir ki, yeniyetmə taekvondoçularımız böyük potensiala malikdirlər.

# *Mütəxəssislərin Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında təmsilçilərimizin çıxışları barədə fikirləri*

Argentinanın paytaxtı Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunları davam edir. İdman ictimaiyyətinin tanınmış nümayəndələri Azərbaycan idmançılarının Cənubi Amerikadakı çıxışlarını yaxından izləyirlər. “Olimpiya dünyası” qəzeti onların fikirlərini oxucularına təqdim edir.

## “Yeniyetmə cüdoçumuz gələcəkdə də bu nəticəni əldə edə bilər”

***Nazim Hüseynov (Olimpiya çempionu):***

- Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında aktivimizə ilk medal yazdıran idmançının cüdoçu olması sevincimizi iki qat artırır. Bu, çox böyük uğurdur. Yeniyetmələrin Olimpiya Oyunlarının çempionu olmaq o deməkdir ki, bu idmançı gələcəkdə də böyüklər arasında həmin nəticəni əldə edə bilər. Vüqarı və məşqçilərini təbrik edirəm. Vüqar Talıbov artıq tarixi qələbə qazandı. Mən Azərbaycan cüdosunun gələcəkdə də parlaq simalarının olacağına əminəm. Vüqar kimi gənc və bacarıqlı idmançılara dəstək olmaq lazımdır.

## “Cüdoçumuz gələcək yarışlarda bizi hələ çox sevindirəcək”

***Elnur Məmmədli (Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu):***

- Bu cür gəncləri görəndə insan fərəh hissi keçirir. Fəxr edirəm ki, bizim Vüqar kimi cüdoçularımız və davamçılarımız var. Vüqar Talıbovun bu qələbəsi onun prinsipiallığından xəbər verir. Prinsipiallıq isə cüdoçu üçün əsas şərtdir. Elə anlar olur ki, idmançı çox yorulur, yarışmaq istəmir. Belə vaxtlarda qeyd etdiyim həmin prinsipiallıq hissi, birinci olmaq həvəsi insanın köməyinə gəlir. Ona görə də Vüqarın gələcəkdə tanınmış idmançılardan biri olacağını əminliklə söyləmək olar. Onun gələcəyi parlaqdır. İnanıram ki, Vüqar gələcək yarışlarda bizi hələ çox sevindirəcək.

## “İdmançılarımızın qazandıqları nəticələr ölkənin idman ictimaiyyətini qürurlandırır”

***Zemfira Meftaxetdinova (Olimpiya çempionu)***

- Argentinada təşkil olunan III Yay Olimpiya Oyunlarında idmançılarımızın qazandıqları nəticələr ölkənin idman ictimaiyyətini sevindirir və qürurlandırır. Mən qızıl, gümüş və bürünc medal alan bütün yeniyetmə idmançılarımızı təbrik edir və onlara gələcək yarışlarda uğurlar arzulayıram. Qoy bu fidanlarımızın uğurları gələcəkdə də davam etsin və onlar böyüklər arasında keçirilən Olimpiya Oyunlarında da öz sözlərini deyə bilsinlər.

## “Bədii gimnastımızın olimpiadada uğurlu çıxışı sevindiricidir”

***Nurlana Məmmədzadə (Azərbaycan Gimnastika Federasiyasının baş katibi):***

- Gimnastika ilk dəfə idi ki, Yeniyetmələrin Olimpiya Oyunlarının proqramında nümayiş etdirilir. Ölkəmizi bu yarışlarda iki gimnastımız - Yelizaveta Luzan və Səməd Məmmədli təmsil edirdi. Bədii gimnastımızın olimpiadada uğurlu çıxışı sevindiricidir. Yeni formata əsasən, 4 qat Olimpiya çempionu Simona Baylzın komandasında yer alan təmsilçimiz fərdi çıxışına görə topladığı xallara görə qızıl medala layiq görüldü.

## “Güləşçimizin Olimpiya çempionu adına layiq görülməsi gözəl qələbədir”

***Firdovsi Umudov (Sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi):***

- Güləşçimizin Olimpiya çempionu adına layiq görülməsi gözəl qələbədir. Turan Bayramov cəmi 2 ildir ki, yığmaya dəvət olunub. Az müddətdə böyük potensiala malik idmançı olduğunu yetərincə sübut edə bilib. Turan bu il yığmanın Türkiyədə, Göygöldə, Qazaxda keçirdiyi təlim-məşq toplanışlarında fəal iştirak edib. Bunun nəticəsidir ki, güləşçimiz bu il həm dünya, həm də Avropa çempionatının qalibi adını qazandı. Turan Bayramovun Olimpiya çempionu tituluna layiq görülməsi idmanımızın uğurudur. Sevindirici haldır ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən iki güləşçimizin ikisi də vətənə medalla qayıdır.

## “Nəticələrdən razı qaldım”

***Niyaməddin Paşayev (Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti):***

- Yeniyetmələrin III Olimpiya Oyunlarında təmsilçilərimizin əldə etdiyi nəticələrdən razı qaldım. Olimpiadada iki taekvonduçumuz mübarizə apardı ki, onlardan biri Cavad Ağayev bürünc medal qazandı. Cavada ümidlərimiz böyük idi və o, bu etimadı doğrultdu. Etiraf etmək lazımdır ki, bu cür çətin yarışın mükafatçısı olmaq heç də asan deyil. Olimpiya Oyunları çox çətin yarışdır, ciddi hazırlıq tələb edir. Hazırlıq zamanı Cavad bunu yaxşı başa düşür və öz üzərində səylə çalışırdı. Sevinirəm ki, onun çəkdiyi zəhmət hədər getmədi.

## “İdmançımız çempionlara yaraşan şəkildə mübarizə aparırdı”

***Samir Aydınov (Cavad Ağayevin şəxsi məşqçisi):***

- Həm şəxsi yetirməm Cavaddan, həm də qadın idmançımız Minayə Əkbərovadan medal gözləyirdim. Sağ olsun ki, Cavad bizi sevindirməyi bacardı. O, çox yaxşı mübarizə apardı. Mən deyərdim ki, Cavad hətta qızıl medal da qazana bilərdi. O, çempionlara yaraşan şəkildə mübarizə aparırdı. Ancaq, görünür, hardasa çatışmazlıqlar olub. Bəlkə də, hardasa cüzi hakim səhvləri olub. Lakin inanmıram ki, onlar nəticəyə təsir edib. Belə mötəbər yarışlarda hakimlər görüşlərə xüsusi diqqətlə yanaşırlar və dərk edirlər ki, məsuliyyət sahibidirlər. Hər halda səhvlərimiz üzərində çalışacağıq. Cavad böyüklər arasında da Olimpiya mükafatçısı olmağa qadirdir.

## “Turan Bayramov böyük potensiala malik güləşçilərdəndir”

***Fazil Hadıbəyov (“Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri):***

- İdmançılarımızın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatında əldə etdiyi nailiyyətlər Azərbaycan idmanına verilən gözəl töhfədir. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında qazanılan nəticələr hər birimizi sevindirir. Turan Bayramovun uğuru hər birimizin uğurudur. “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin yetirməsinin Olimpiya çempionu adı alması bu təşkilatın sədri kimi məni çox qürurlandırır.

Turan Bayramov böyük potensiala malik güləşçilərdəndir. Onun peşəkar idmançı kimi yetişməsində şəxsi məşqçisi Abil İbrahimovun, klub məşqçisi Cavid Qurbanzadənin zəhmətləri böyükdür. Biz gələcəkdə onun böyüklər arasında Olimpiya çempionu olacağına da inanırıq. Arzu edirəm ki, idmançılarımız bundan sonra da ölkəmizin şərəfini uca tutaraq irimiqyaslı yarışlardan vətənə medallarla qayıtsınlar.

## “Əziyyət çəkmədən, tər tökmədən qələbə qazanmaq mümkün deyil”

***Tərlan Həsənov (Əməkdar məşqçi):***

- Vüqar Talıbovun bu qələbəsi bir daha göstərdi ki, Azərbaycanda əsaslı cüdo məktəbi mövcuddur. Bu yarış öz çətinlik səviyyəsinə görə heç də böyüklərin Olimpiya Oyunlarından geri qalmır. Hərhalda həm yeniyetmələrin, həm də böyüklərin Olimpiya Oyunlarında mübarizə aparan, çempion olmaq istəyən idmançı çox ciddi hazırlaşmalı, əzmkar mübarizə aparmalıdır. Əziyyət çəkmədən, tər tökmədən qələbə qazanmaq mümkün deyil. Vüqar ilk növbədə öz xarakteri ilə bunu bacardı. Qarşısına qoyduğu hədəfə doğru məqsədyönlü şəkildə irəlilədi və məqsədinə çatdı. Xarakteri olmayan cüdoçu mütləq hardasa təslim olacaq. Xarakterli idmançılar isə əksinə, gücünü toplayaraq, ən yüksək nəticə üçün sözün əsl mənasında vuruşur. Vüqarı bu möhtəşəm qələbə münasibəti ilə təbrik edir, ona gələcək yarışlarda uğurlar arzulayıram.

# BUENOS-AYRES-2018

## Yeniyetmələrin III Yay Olimpiya Oyunları

### *“Olimpiya dünyası” qəzetinin foto-obyektivində*






















AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdman kompleksləri yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafına xidmət edir

İdman və bədən tərbiyəsi hər bir şəxsin, cəmiyyətin sağlamlığını təmin edən əsas amillərdən biridir. İdmanla məşğul olmaq insanın qan-damar sistemini, ürək fəaliyyətini yaxşılaşdırır, eyni zamanda gün ərzində onun gümrah qalmasına kömək edir. Lakin idmanın faydalı cəhətləri təkcə bunlarla bitmir. O, eyni zamanda insanda xarakter formalaşdırır, sürətli düşünməyə, düzgün və dəqiq qərar verməyə kömək edir. Sevindirici haldır ki, son illər Azərbaycanda idman sürətlə inkişaf edir. Təbii ki, bu, dövlətin idmana və Olimpiya Hərəkatına göstərdiyi diqqət və qayğı ilə bağlıdır. Atletlərimizin beynəlxalq arenalarda qazandıqları yüksək nəticələr, paytaxt Bakının ən mötəbər idman yarışlarına layiqli şəkildə ev sahibliyi etməsi bir daha onu göstərir ki, Azərbaycan, həqiqətən, dünyanın idman mərkəzlərindən biridir. Bunu sübut edən daha bir amil isə respublikamızdakı idman qurğularının, cəmiyyət və klubların sayı, habelə onların qazandıqları uğurlarıdır. Bu gün ölkəmizdə yüzlərlə idman obyekti var. Fəaliyyəti ilə seçilən belə idman qurğularından biri də Bakı Su İdmanı Sarayıdır. 2015-ci ildə istifadəyə verilən və paytaxtın Bayıl qəsəbəsində yerləşən idman obyekti özünün gözoxşayan quruluşu və dizaynı ilə şəhərə xüsusi gözəllik verir. Həmçinin Dənizkənarı milli parkın yaxınlığında yerləşməsi sarayda keçirilən yarışları izləməyə gələn yerli sakinlər və əcnəbilərin səmərəli istirahəti üçün də əlverişlidir.



## "Bakı Su idmanı Sarayında istifadəçilər üçün demək olar ki, hər şey nəzərə alınıb"

Su idman Sarayında korporativ satış və ictimaiyyətlə əlaqələr şöbəsinin meneceri Elnarə Əliyeva ilə görüşüb onunla bizi maraqlandıran suallar ətrafında söhbət etdik. Müsahibimiz, əvvəlcə, bu idman qurğusu ilə bağlı bizə ətraflı məlumat verdi. O, bildirdi ki, 6 hektarlıq sahədə yerləşən bu idman mərkəzinin ümumi sahəsi 72 min kvadratmetrdir və Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir. "Bildiyiniz kimi, Bakı Su İdmanı Sarayı ölkəmizdə keçirilən birinci Avropa Oyunları ərəfəsində tikildi. O zaman əsas məqsəd proqrama daxil olan bir neçə idman növü üzrə yarışların bu obyektdə keçirilməsi idi. Şübhəsiz ki, gələcəyimiz bu günkü uşaqların əlindədir. Onlar nə qədər sağlam, savadlı böyüsələr, biz sabaha bir o qədər inamlı addımlayarıq. Məhz bu məsələni nəzərə alaraq Oyunlardan sonra Bakı Su İdmanı Sarayını sakinlərin ixtiyarına verdik. Qeyd edim ki, Sarayda üç hovuz inşa edilib. Uzunluğu 50, eni 25, dərinliyi isə 3 metr olan əsas hovuz su idmanının müxtəlif növləri üzrə yerli və beynəlxalq yarışlar üçün nəzərdə tutulub. Əsas zaldakı hündürlükdən suya tullanma hovuzunun uzunluğu 25 metrdir. Burada hündürlüyü 1, 3, 5, 7, 5 və 10 metr olan beşpilləli suyatullanma platforması inşa edilib. Bakı Su İdmanı Sarayının ikinci zalında məşqlər üçün tikilən üzgüçülük hovuzunun uzunluğu 25, eni isə 40 metrdir. Burada yarışları eyni zamanda 6 mindən çox tamaşaçı izləyə bilər. Bundan əlavə sarayda 150 yerlik restoran, VVİP, VİP, əlil tamaşaçılar və media nümayəndələri üçün yerlər nəzərdə tutulub. Binada üzgüçülük üçün xüsusi məşq platformaları və avadanlığı quraşdırılan fitnes-akrobatika və ağırlıqqaldırma zalları mövcuddur. Dam örtüyünün bir hissəsində "Sky light" xüsusi panoram şüşə panellərindən istifadə olunub. Bu şüşə panelləri eyni zamanda günəş enerjisini elektrik enerjisinə çevirmək funksiyasına malikdir. Əlbəttə, bu amil də gözlənilməz vəziyyətlərdə zalların alternativ işıqla təmin olunmasına kömək edir. Ümumiyyətlə Bakı Su İdmanı Sarayında istifadəçilər üçün, demək olar ki, hər şey nəzərə alınıb", - deyə Elnarə xanım əlavə etdi.

## Üzgüçülük bir çox xəstəliklərin müalicəsində effektiv üsul hesab olunur

Mütəxəssislər də təsdiq edirlər ki, üzgüçülüyün insan orqanizmi üçün faydaları kifayət qədər çoxdur. Xüsusilə uşaq və yeniyetmələr üçün gündə 1-1,5 saat suda üzmək olduqca faydalıdır. O, ilk növbədə əsəbləri sakitləşdirir, sinir sisteminin fəaliyyətini yaxşılaşdırır. Üzgüçülüklə məşğul olmaq həmçinin, sümük xəstəliklərinin müalicəsində effektiv üsul hesab edilir, bədəndəki bütün əzələləri gücləndirir, elastikliyi artırır, ürəyi sağlamlaşdırır, astma xəstəliyinə müalicəvi təsir edir, xolestrol səviyyəsini normada saxlayır, diabet riskini azaldır, beyinin oksigen təminatını artırır, ümumi qan dövranını yaxşılaşdırır və s. Sadaladığımız amillərlə bağlı olaraq xüsusilə ilə son illər bu idman növünə maraq və həvəs artmaqdadır. Bu, Bakı Su İdmanı Sarayında da özünü göstərir. Müsahibimizin verdiyi məlumata görə hazırda Su İdmanı Sarayında təxminən 1600 nəfər üzgüçülüklə məşğul olur. "Üzgüçülük Su İdmanı Sarayında ən kütləvi idman növüdür. Sözsüz ki, bu, həmin növün insanda aşıladığı nəcib keyfiyyətlərlə və bütün əzələlər üçün faydalı olması ilə bağlıdır. Ümumiyyətlə üzgüçülük yeganə idman növüdür ki, bədəndəki bütün əzələləri işlədir və onları inkişaf etdirir. Bu idman növü ilə məşğul olan insanın zədələnmək ehtimalı demək olar ki, yoxdur. Düşünürəm ki, kütləviliyin digər bir səbəbi də Azərbaycanın Xəzərin sahilində yerləşməsi ilə bağlıdır. Yəqin ki, bu, insanlara əlavə həvəs verir. Üçüncü bir tərəfdən isə, belə düşünmək olar ki, Bakı Su İdmanı Sarayı sakinlər üçün sərfəlidir. Ona görə də üzgüçülük bölmələrinə bu qədər kütləvi axın var. Bəzən elə olur ki, bir qrupda bir yox, iki-üç müəllim məşq keçir və onlar üzməyi öyrənmək istəyən hər kəsə mümkün qədər fərdi yanaşmağa çalışırlar. Bu, çox vacibdir. Müşahidələr də göstərir ki, bu halda nəticə daha yaxşı olur", - deyə Elnarə Əliyeva bildirdi.

Bakı Su İdmanı Sarayında təkcə üzgüçülük məşqləri də keçilmir. Burada su polosu üzrə məşqlər də aparılır. Söhbətimiz zamanı Elnarə xanım xüsusi olaraq vurğuladı ki, ilk dəfə olaraq Su İdman Sarayında sinxron üzgüçülük məşqləri də təşkil olunur. Bundan başqa uşaq, yeniyetmə, gənc və böyüklər adı çəkilən kompleksdə bədii gimnastika, fitnes, trenajor, pilates, yoqa, saykling, stretçinq ilə məşğul ola, habelə təcrübəli məşqçilərin rəhbərliyi ilə ciu-citsu, cüdo, aykido kimi döyüş növlərinin sirlərinə yiyələnə bilərlər. Bakı Su İdmanı Sarayında bədii gimnastikanın inkişafından danışan müsahibimiz söylədi ki, həmin idman növü üzgüçülükdən sonra özünün kütləviliyinə görə ikincidir. Bu onunla əlaqədardır ki, Su İdmanı Sarayında həm üzgüçülük, həm də bədii gimnastika üzrə müxtəlif beynəlxalq səviyyəli təlim-məşq toplanışları, yarışlar təşkil olunur.

## "Çalışırıq ki, respublikanın idman həyatında yaxından iştirak edək"

Adətən keçirilən məşqlərin keyfiyyətləri yarışlarda əldə olunan nəticələrlə müəyyənləşir. Bu mənada Bakı Su İdmanı Sarayında keçirilən məşqləri uğurlu hesab etmək olar. Belə ki, bu il Sarayda keçirilən üzgüçülük üzrə açıq çempionatda komanda layiqli şəkildə mübarizə aparıb və yarışı nailiyyətlə başa vurub. "Bu il üzgüçülük idman növü üzrə açıq çempionata ev sahibliyi etdik. Həmin yarışda həm yerli, həm də əcnəbi idmançılar iştirak edirdi. Sevindirici haldır ki, təmsilçilərimiz bu yarışda uğurlu nəticələr əldə etdilər. Ümumiyyətlə, dediyim kimi, üzgüçülük idman növündə nailiyyətlərimiz daha çoxdur. Sevinirik ki, bizim Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında mübarizə aparan Fatimə Alkərəmova kimi idmançımız var. İnanıram ki, yaxın on ildə Bakı Su İdmanı Sarayının onlarla belə bacarıqlı yetirməsi olacaq. Həmçinin nəzərinizə çatdırım ki, bu il bədii gimnastlarımız Dubayda, Ukraynada, Macarıstanda, üzgüçülərimiz isə Braziliyada yarışlarda iştirak etdilər və uğurlu nəticələrlə geri qayıtdılar. Müntəzəm olaraq biz özümüz də müxtəlif beynəlxalq səviyyəli təlim-məşq toplanışlarına, yarışlara ev sahibliyi edirik. Beləliklə də, həm dünya təcrübəsinə baxaraq, bəzən ondan yararlanır, həm də öz gücümüzü yoxlayırıq. Noyabr ayında da biz növbəti çempionata ev sahibliyi edəcəyik. İnanıram ki, bu yarış da bizim üçün uğurlu olacaq. Ümumiyyətlə çalışırıq ki, respublikanın idman həyatında yaxından iştirak edək", - deyə müsahibimiz əlavə etdi.

Bütün sahələrdə, o cümlədən də idmanda mövcud şəraitə tez bir zamanda uyğunlaşmaqda,



böyük nəticələr əldə etməkdə psixoloji hazırlığın danılmaz rolu var. Başqa sözlə desək, idmançılarda psixoloji vəziyyəti öyrənmək onun idarə olunması metodikasına yiyələnmək xüsusi məharət tələb edən bir sahədir. Əgər psixoloji durum yerində olmasa idmançı nəinki qələbə qazana bilməz, heç məşqçinin dediklərindən, göstərdiklərindən də bir şey anlamaz. Bu mənada idmançılarda, xüsusilə idmana təzə başlayanlarda psixoloji hazırlıq daim diqqət mərkəzində saxlanılmalıdır. Bu, o qədər həssaslıq tələb edən məsələdir ki, hətta bəzən komandalara, idman qurumlarına xüsusi psixoloqlar da dəvət olunur. Sözügedən məsələ haqqında danışan Elnarə Əliyeva bildirdi ki, Su idmanı Sarayında xüsusi psixoloqlar olmasa da, məşqçi-müəllimlər özləri yetirmələrini yarışlara psixoloji cəhətdən hazırlayırlar. Bu isə müsbət nəticə verir. "Doğrudur, Bakı Su İdmanı Sarayında idmançılarla məşğul olmaq üçün xüsusi psixoloqlar yoxdur. Lakin məşqçilər öz işlərini kifayət qədər yaxşı bilirlər və əminliklə demək olar ki, vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Məşqçi-müəllimi idmançıdan fərqləndirən əsas keyfiyyət də elə onun bir növ psixoloq olması, qarşısındakı insanla, o cümlədən tələbəsi ilə dil tapma qabiliyyətidir. Qeyd etdiyim kimi, məşqçilərimiz çox zaman çalışırlar ki, idmançılarla fərdi məşğul olsunlar. Bu zaman onlar mütləq öz psixoloji bacarıqlarını işə salaraq, ilk növbədə uşaq, yeniyetmə və ya gəncin xarakterini müəyyənləşdirir, sonra isə onunla profilaktik söhbətlər etməyə başlayırlar. Həqiqətən, bu, mühüm və təxirəsalınmaz amildir. İdmançını vaxtında psixoloji cəhətdən hazırlamaq, onda nizam-intizam, mübarizə eşqi və prinsipiallıq yaratmaq lazımdır", - deyə o, bildirdi.

## "Su sağlamlıq, gümrahlıq mənbəyidir"

Bəzən uşaq və yeniyetmələr dərslərinin çoxluğundan şikayətlənərək valideynlərinin təkidinə baxmayaraq, idman məşğələlərinə getməkdən imtina edirlər. Mütəxəssislər belə hesab edirlər ki, bu, tənbəlliyi ört-basdır etmək üçün gətirilən bəhanədən başqa bir şey deyil. Elnarə xanım da bu fikirdədir. O, düşünür ki, əgər yeniyetmə idmanla məşğul olmaq istəyirsə, buna mütləq vaxt və imkan tapacaq. "Su İdman Sarayı səhər saat 7-dən, axşam saat 11-ə kimi fəaliyyət göstərir. Nəzərə alsaq ki, bu idman mərkəzində üzgüçülük daha kütləvidir, deməliyəm ki, səhər saat 8-dən axşam saat 10-a qədər müxtəlif qruplarda üzgüçülük məşqləri keçilir. Yəni birinci növbədə oxuyanlar günün ikinci yarısı, ikinci növbədə oxuyanlar isə səhərlər idmanla məşğul ola bilərlər. Bu zaman onlar özləri də hiss edəcəklər ki, gün ərzində daha enerjili olur və dərslərini daha yaxşı qavrayırlar. Bu, idmanın insanda aşıladığı müsbət keyfiyyətlər sırasındadır. Təəssüf ki, son vaxtlar məktəblilərin dərs bəhanəsi ilə idmandan uzaqlaşmaları adi hal alıb. Lakin sevindirici bir məqam da var ki, həvəslə müxtəlif bölmələrdə məşğul olanların sayı daha çoxdur. Onların bir qismi sadəcə sağlam olmaq, asudə vaxtlarını səmərəli keçirmək, bir qismi isə sırf idmanda öz sözlərini demək, çempion olmaq üçün məşğələlərə yazılırlar. Hər iki hal təqdirəlayiqdir. Üzgüçülük idman növünün səciyyəvi cəhəti ondan ibarətdir ki, bəzən insanlar müəyyən xəstəliklərin qarşını almaq və ya ondan yaxa qurtarmaq üçün bu idman növünə müraciət edirlər. Təsadüfi deyil ki, həkimlər də onurğa əyriliyindən əziyyət çəkən, qamətləri düzgün olmayan insanlara üzgüçülüklə məşğul olmağı tövsiyə edirlər. Bəzən onlara xüsusi masaj seansları da əlavə olunur ki, bu da nəticənin daha tez əldə olunmasına kömək edir. Unutmaq olmaz ki, su sağlamlıq, gümrahlıq mənbəyidir. Üzgüçülük yeganə idman növüdür ki, bütün yaş qrupları üçün uyğundur. Necə deyərlər, 7-dən 77-ə qədər hər kəs üzgüçülüklə məşğul ola və öz sağlamlığının qayğısına qala bilər", - deyə Bakı Su İdmanı Sarayının İctimaiyyətlə Əlaqələr Şöbəsinin meneceri fikirlərini bölüşdü.

Təcrübələr göstərir ki, idmana təzə başlayan yeniyetmə və gənclər bəzi hallarda bir müddətdən sonra məşğul olduqları idman növünü ataraq, bir başqa idman növünün sirlərinə yiyələnməyə başlayırlar. Beləliklə, bir də görürsən ki, idmançı il ərzində 4-5 idman növü ilə məşğul olsa da, heç birində uğur əldə edə bilmir. Bu tendensiyanın çox səbəbləri ola bilər. Elnarə xanım isə bunu daha çox həmin yeniyetmə və gənclərin eyni vaxtda bir neçə idman növü ilə məşğul olmaq arzusu ilə əlaqələndirdi. O, həmçinin Bakı Su İdmanı Sarayının bu istiqamətdəki üstünlüyündən də söz açdı: "Döyüş idman növləri bir-birlərinə bənzəyirlər. Ona görə də idmana yeni başlayanlar özlərinə ən uyğun idman növünü tapmaq istədiklərinə görə bəzi hallarda məşğul olduqları idman növlərini dəyişir, sanki "sınaq müddəti" keçirlər. Bu, daha çox onlardakı maraqdan və həvəsdən irəli gəlir. Məsələn yaxşı üzməyi bacarmaqla yanaşı, həm boksun, həm də cüdonun sirlərinə yiyələnməyi arzulayırlar. Ancaq məşqlərin müxtəlif məntəqələrdə keçirilməsi vəziyyəti çətinləşdirir. Nəticədə yeniyetmə və gənc məcbur qalıb həmin idman növlərindən birini seçməli olur. Bakı Su İdmanı Sarayının üstünlüyü ondan ibarətdir ki, burada təkcə üzgüçülük yox, eyni zamanda digər idman növləri üzrə də məşqlər keçirilir. Yəni uşaq, yeniyetmə və gənclər burada bir yox, bir neçə idman növü ilə məşğul ola bilərlər".

İdman elə bir sahədir ki, qələbə qazanmaq üçün təkcə idmançının bacarığı və çalışqanlığı kifayət etmir. Uğura gedən yolda məşqçi-müəllimin təcrübəsi də çox mühüm rol oynayır. Yəni məşqçi ilə idmançı əl-ələ verərək ortaq məqsəd-böyük nailiyyətlər üçün birlikdə çalışırlar. Sözsüz ki, əgər məşqçi kifayət qədər təcrübəyə malik olmazsa bu zaman heç bir müvəffəqiyyətdən söhbət gedə bilməz. Təqdirəlayiq haldır ki, baş çəkdiyimiz idman kompleksində məşqçi-müəllimlərin işə götürülməsinə xüsusi həssaslıqla yanaşılır. Bu barədə ətraflı danışan müsahibimiz vurğuladı ki, məşqçi-müəllimlər işə götürülərkən onların əvvəllər harada işlədikləri, hansı nəticələr qazandıqları mütləq yoxlanılır. "Hər məşqçi Bakı Su İdmanı Sarayında işləyə bilməz. Müəllimin işə götürülməsi məsələsi çox məsuliyyətli bir prosesdir. Çünki bir məşqçinin bəzən 100-dən çox tələbəsi ola bilər və əgər o, nəyisə səhv bilirsə, deməli, yetirmələrini də səhv öyrədəcək. Bu isə yarışlarda mənfi nəticəyə səbəb olaraq imicimizə təsir göstərəcək, həmçinin valideynlərin narazı reaksiyaları ortaya çıxacaq. Bunlar təbiidir. Biz bunu yaxşı başa düşürük və bu səbəbdən də müəllimləri Bakı Su İdmanı Sarayına cəlb edərkən hökmən onlar haqqında geniş məlumat əldə edirik. Şagird müəllimin güzgüsüdür. Sevinclə bir daha qeyd etmək istəyirəm ki, Bakı Su İdmanı Sarayı özünün idman uğurları ilə fəxr edir və bunun arxasında öz işini bilən peşəkar məşqçi-müəllim kollektivi dayanır", - deyə Elnarə xanım vurğuladı.



Göründüyü kimi, Su İdman Sarayı bütün standartlara cavab verir. Keçirilən səmərəli məşqlər, görülən işlər öz məqsədyönlü nəticəsini verir. Bu isə ölkədə bir çox idman növlərinin və xüsusilə üzgüçülüyün inkişafına təkan verir, kütləviliyi artırır. Nəticədə yeniyetmə və gənclər sağlam böyüyür, cəmiyyətə yararlı şəxslər kimi yetişirlər. Bu isə o deməkdir ki, Azərbaycan indi olduğu kimi, gələcəkdə də bütün sahələrdə dünyada öz sözünü deməyi bacaracaq. Çünki hər şey sağlamlıqdan, nizam-intizamdan başlayır.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Müsahibə

# “Çalışmışam ki, mənə göstərilən etimadı doğruldum”

***Ölkəmizdə yetərincə dünya səviyyəli güclü, nailiyyətli idmançılar var. Belə idmançıların yetişməsində isə təcrübəli mütəxəssislərin, məşqçi-müəllimlərin rolu danılmazdır. O mütəxəssislər ki, vaxtilə yetirməsinin uğuru üçün fədakarlıq göstərir, öz təcrübəsini onlarla bölüşür. Belə mütəxəssislərdən biri də Azərbaycanın Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, ali kateqoriyalı məşqçi Məhbub Ağayevdir. Məhbub müəllimin doğulub boya-başa çatdığı Masallı rayonunda idmanın kütləviləşməsində və inkişafında müstəsna xidmətləri olub. Buyaxınlarda redaksiyamızın qonağı olan təcrübəli mütəxəssislə söhbətimiz zamanı onun idmanda keçdiyi yola yenidən nəzər saldıq.***

***- Məhbub müəllim, əvvəlcə, özünüz haqda oxucularımıza məlumat verərdiniz.***

- 1941-ci ildə Masallı rayonunda anadan olmuşam. 1948-1958-ci illərdə Masallı şəhər 1 saylı orta məktəbində təhsil almışam. İdmana həvəsim hələ orta məktəbdə oxuyan vaxtlardan yaranmışdı. Kişik yaşlarımda məhəllədə uşaqlarla futbol oynayardıq. Mən həmişə məhəllə futbolunda qapıçı durmağı sevirdim. Düzdür, deyirlər ki, məhəllə futbolunda qapıçıları adətən kök uşaqlardan seçirdilər. Lakin bizdə belə deyildi. Mənim qapıda dayanmağa böyük marağım var idi. Həmişə bu mənim diqqətimi cəlb edirdi. Həm də qapını qorumağın özü böyük bir məsuliyyətdir. Təsəvvür edin ki, bir komandanın məsuliyyəti sənin əlindədir. Futbol elə bir idman növüdür ki, müdafiəçilər, yarımmüdafiəçilər və hücumçular səhv edərkən onu sığortalayacaq komanda yoldaşları olur. Lakin qapıya zərbə vurularkən bütün məsuliyyət məhz qapıçının üzərinə düşür. Bir səhv kifayət edir ki, komanda oyunu məğlub kimi başa vursun.

***- Qeyd etdiniz ki, qapıda dayanmaq böyük məsuliyyət tələb edir. Maraqlıdır, bəs nəyə görə müdafiəçi, yarımmüdafiəçi, hücumçu yox məhz qapıçı olmaq sizi özünə bu qədər bağladı?***

- Qeyd etdiyim kimi uşaqlıqdan futbol oynayarkən qapıçı dayanırdım. Həm boyum uzun idi, həm də cəld olduğuma görə həmişə qapını mənə həvalə edirdilər. Bir sözlə komanda yoldaşlarım da mənə güvənirdilər. Onların bu inamı, güvəni və dəstəyi məni qapıda durmağa daha da həvəsləndirdi.

***- Beləcə, məhəllə futbolundan başlayan həvəs sizi böyük yarışlara gətirib çıxardı.***

- Bəli. Sonralar rayon birinciliklərində çıxış etdik və məktəbimiz bütün komandaları məğlub edərək birinci yeri tutdu. Yadıma gəlir ki, həmin vaxt rayonumuza Rusiyadan müəllimlər qonaq gəlirdilər. Həmin müəllimlər həm də bizim oyunumuzda hakimlik edirdilər. Valentin adlı bir məşqçi var idi. O, həm yaxşı qapıçı idi, həm də rayonun komandasına məşqçilik edirdi. Elə oldu ki, keçirdiyim bütün oyunlarda qoruduğum qapını toxunulmaz saxladığım üçün müəllimlərin



diqqətini cəlb etdim. Oyunumu bəyənən müəllimlər məşqlərdə iştirak etməyimi tələb etdilər. Onların oyunumu bəyənməsi və məşqlərdə iştirak etməyimi istəməsi mənim üçün çox sevindirici idi. Elə həmin vaxtdan həvəslə məşqlərə başladım. Tezliklə komandanın əsas heyətində yer aldım. İdmana həvəsim olduğuna görə 1960-cı ildə sənədlərimi Bədən Tərbiyəsi və İdman İnstitutuna verdim. İnstituta daxil olduqdan sonra yenidən qapıçı kimi məşqlərə başladım. İnstitut vaxtı məşqçilər tərəfindən, həqiqətən də, bəxtim gətirmişdi. Futbolumuzun tanınmış simalarından olan Vitali Şevçenko, Eldar Əzimzadə, Ələkbər Məmmədov və Tofiq Bəhramov kimi təcrübəli mütəxəssisləri mənim məşqçilərim oldular. 1961-ci ildə institutun yığma komandasının heyətinə dəvət olundum. Bir il sonra isə “Burevestnik” cəmiyyətinin yığma komandasında çıxış etməyə başladım. Elə həmin il “Burevestnik” cəmiyyətinin respublika birinciliyi keçirilirdi. Bədən Tərbiyəsi və İdman İnstitutunun komandası bütün rəqiblərinə qalib gələrək birinci yeri tutdu. Sonra komandamız ümumittifaq zona yarışlarında (Bakı şəhərində) birinci yeri tutaraq final mərhələsinə vəsiqə qazandı. Lakin komandamız həlledici oyunda 4-cü yerə sahib çıxıdı. Gürcüstan komandası birinci, RSFSR ikinci, Ukrayna isə üçüncü oldu. Sonrakı illərdə isə Azərbaycan və Bakı birinciliklərində çıxış etdim.

***- Siz həm də Masallı rayonunda idmanın inkişafı üçün çox işlər görmüsünüz.***

- İnstitutu əla qiymətlərlə bitirdiyimə görə Eldar Əzimzadə və Tofiq Bəhramov mənə Bakıda qalıb işləməyi təklif etdilər. Lakin mən bu təklifi qəbul edə bilməzdim. Çünki bunun üçün müəyyən səbəblərim var idi. Əvvəlcə, onu qeyd edim ki, atam 1941-45-ci illərdə Böyük Vətən Müharibəsində həlak olmuşdu. Həmin vaxtdan anamla tək yaşayırdım. Ona görə də anamı Masallıda tək-tənha qoyub, Bakıda qalmaq istəmirdim. Bundan başqa mənim ən böyük arzum institutu bitirdikdən sonra Masallıya qayıdıb, doğulduğum el-obada idmanın inkişafı üçün çalışmaq idi. Məzun olduqdan sonra Bakı ilə yanaşı, bir sıra rayonlardan təkliflər aldım. Amma onların heç birini məlum səbəbdən qəbul etmədim. Masallıya qayıtdım. 1964-cü ildə, məktəbdə dərs deməklə yanaşı, şəhər 2 saylı orta məktəbin nəzdində futbol və voleybol idmanı üzrə ictimai əsaslarla Uşaq-Gənclər İdman Məktəbini təşkil etdim. Eyni zamanda futbol üzrə rayon yığma komandasında da məşqçilik edirdim. Qısa müddət ərzində rayonumuzun yığma komandası formalaşmağa başladı. Masallı komandası 1964-cü ildə “Məhsul” idman cəmiyyətinin çempionu oldu. Bir il sonra isə məktəblilərin İmişlidə keçirilən voleybol birinciliyində komandamız bütün rəqiblərindən üstün oldu. Mart ayında bu dəfə futbol üzrə komandamız birinci yeri tutdu. Növbəti il isə komandamız Salyanda voleybol və futbol yarışlarında ardıcıl olaraq iki dəfə fəxri kürsünün ən yüksək pilləsində yer aldı.

1966-cı ildə Moskvada çıxan “Oqonyok” jurnalında beynəlxalq dərəcəli hakim, Bədən Tərbiyəsi və İdman İnstitutunun futbol üzrə kafedra müdiri Tofiq Bəhramovun geniş məqaləsi dərc olunmuşdu. O, Bədən Tərbiyəsi və İdman İnstitutunun məzunları barədə geniş



məqalə ilə çıxış edərək, Masallıda ictimai əsaslarla açılmış idman məktəbinin işini, o cümlədən mənim fəaliyyətimi geniş şərh etmişdi. Bu, mənim üçün həmin dövrdə sevindirici hal idi. Əməyimizə qiymət verilirdi, işıqlandırılırdı. Beləliklə, rayonda idman sahəsində gedən işlər müvəffəqiyyətlə davam edirdi. Məktəblilərin zona yarışlarında və “Məhsul” idman cəmiyyətinin birinciliklərindəki qələbələr rayonun yığma komandasının respublikada 1968-ci ildə güclülər qrupunda çıxış etməsinə gətirib çıxardı. Bu bizim üçün böyük uğur idi.

***- Bildiyimizə görə, Masallıda uzun müddət məsul vəzifədə çalışmısınız.***

- Masallıda idman sahəsində gördüyüm müsbət işlərə görə, 1970-ci ildə rayon rəhbərliyi məni rayon Bədən Tərbiyəsi və İdman Komitəsinə sədr təyin etdi. Bu, sözsüz ki, mənə olan etimaddan və inamdan irəli gəlirdi. Məsuliyyətimi yaxşı dərk edirdim. Həmişə çalışmışam ki, mənə göstərilən etimadı doğruldum. Beləliklə, bundan sonra daha güclü idmançılar yetişdirməyi, respublika və ümumittifaq birinciliklərində iştirak edən idmançıları yarışlara hazırlamağı qarşıma məqsəd qoydum və buna nail oldum. Fəaliyyətim ərzində 2 Avropa çempionu hazırladım. Onlar Əli Əliyev (yunan-Roma güləşi) və Azər İsayevdir (sərbəst güləş). Bundan başqa 3 beynəlxalq dərəcəli idman ustası - Vilayət Ağayev (yunan-Roma güləşi), Şirxan Ağayev və Cəbrayıl Cəbrayılov (hər ikisi ağırlıqqaldırma) yetişdirmişəm. Həmçinin Böyükxan Gülverdiyev (Azərbaycan çempionu), Fazil Hadıbəyov (Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi), Fərid Cəlalov (kişilərdən ibarət voleybol üzrə “Lokomotiv” komandasının baş məşqçisi), Qurban İsayev (Əməkdar məşqçi), Rafiq Rəsulov (Əməkdar məşqçi), Yavər Əliyev (Respublika dərəcəli hakim) və digər mütəxəssisləri hazırlamışam. Futbol üzrə komandamız 4 dəfə “Məhsul” idman cəmiyyətinin respublika çempionu, 1 dəfə isə Azərbaycan kubokunun qalibi adını qazanıb. Bu qələbələr rayonda bədən tərbiyəsi və idman sahəsinin düzgün təbliğatı sayəsində əldə olunub. Demək olar ki, 24 il bu komitədə fəaliyyət göstərdim. Mən işdən çıxarkən Rayon Maarif şöbəsindən bildirdilər ki, siz Masallının idman həyatı üçün böyük işlər görmüsünüz. Sizin kimi təcrübəli mütəxəssisi itirmək bizim üçün heç də arzuolunan deyil.

***- Məhbub müəllim, Masallıda idmanın inkişafı istiqamətində gördüyünüz işlər qiymətləndirildimi?***

- Bəli. 2001-ci ildə Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi adına layiq görülmüşəm. Ali kateqoriyalı müəllim, əmək veteranıyam və dövlət qulluqçusu kimi təqaüd alıram. Çoxlu sayda fəxri fərmanlarım var.

***- Hazırda Masallıda hansı idman növləri inkişaf etdirilir?***

- Əvvəllər Masallı idmançıları futbol, voleybol və güləş növlərində xüsusi fəallıq göstərirdilər. Rayonumuzun idmançıları bu növ üzrə keçirilən ölkədaxili, zona yarışlarında və birinciliklərdə fərqlənirdilər. Çox təəssüf ki, son illərdə rayonumuzda komanda idman növləri, xüsusilə də voleybol və futbol demək olar ki, yox dərəcəsindədir. Bu, bizi çox narahat edir. Çünki bu rayonun vaxtilə futbol və voleybol növlərində böyük uğurları olub. Hazırda belə vəziyyətin yaranması ilə barışa bilmirəm. İnanıram ki, gələcəkdə Masallıda komanda idman növləri yenidən öz qüdrətini geri qaytaracaq, rayonun yetirmələri müxtəlif yarışlarda uğurlu çıxışları ilə fərqlənəcəklər. Hazırda isə rayonumuzda güləş, karate və kikboksinq növləri üzrə məşqlər keçirilir. Gənclərin əksəriyyəti demək olar ki, bu növlərə maraq göstərirlər.

***- Övladlarınızdan sizin yolunuzu davam etdirən varmı?***

- 2 qızım, 1 oğlum var. Övladlarımdan yalnız oğlum idmanla məşğul olub. O, “Viləş” komandasında çıxış edib. Oğlum da mənim kimi qapıçı olub. O, bundan başqa bir müddət “Araz” komandasında da çıxış edib.

***Azər Əlizadə***



Bölgə xəbərləri

# Həvəskar velosipedçilər Biləsuvarda yarışıblar

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Biləsuvarda həvəskar velosipedçilər arasında yarış keçirilib. Biləsuvar Rayon Gənclər və İdman İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 150-yə yaxın velosipedçi iştirak edib. Start



və finiş xətti Heydər Əliyev prospektində olan yarışda velosipedçilər 16,5 kilometr məsafə qət ediblər.

Fərqlənən idmançılar Biləsuvar Rayon Gənclər və İdman İdarəsinin rəisi Aqşin Bağırov və AzVİF-in baş katibi Fərhad Əliyev tərəfindən medal, diplom, kubok və qiymətli hədiyyələrlə təltif ediliblər.

* * *

Xaçmaz rayonunun Nabran meşə zolaqlarında keçirilən səmti müəyyənetmə idman növü üzrə növbəti açıq respublika çempionatının qalibləri müəyyənləşib. Yarışda nazirlik, idarə, təşkilat və güc strukturlarını, klub və federasiyaları, idman cəmiyyətlərini, ali təhsil müəssisələrini təmsil edən 150-dən çox idmançı mübarizə aparıb. Gərgin mübarizədən sonra həm komanda hesabında, həm də fərdi yarışlarda qaliblərin adları müəyyənləşib. “Neftçi” idman klubunun üzvləri komanda hesabında açıq respublika çempionatının kubokunu qazanıb. “Dağçılıq” idmançıları ikinci, Müdafiə Nazirliyini təmsil edən komanda isə üçüncü yerə layiq görülüb. Yarışda fərqlənən idmançılara medal və diplomlar təqdim olunub. Qaliblər oktyabr ayının sonlarında Türkiyədə keçiriləcək beynəlxalq yarışda ölkəmizi təmsil edəcəklər. Azərbaycan Səmti Müəyyənetmə İdman Federasiyasının Gənclər və İdman Nazirliyi ilə birlikdə təşkil etdiyi birincilik elektron qeydiyyat sisteminin tətbiqi ilə keçirilib. Yarışda idman xəritəçiliyi sahəsində tanınmış xarici mütəxəssislər tərəfindən çəkilmiş beynəlxalq standartlara uyğun idman xəritələrindən istifadə olunub. Mükafatlandırma mərasimində qeyd edilib ki, bu kimi yarışlar səmti müəyyə-



netmənin ölkəmizdə kütləvi idman növü kimi tanınması, sağlam həyat tərzinin və ətraf mühitə qayğı ilə yanaşmanın təbliği məqsədilə keçirilir. Bununla yanaşı, turnir ölkənin səmti müəyyənetmə idman növü üzrə milli yığma komandası üçün idmançıların üzə çıxarılması baxımından da böyük əhəmiyyətə malikdir.

* * *

Balakəndə çağırışa qədər və çağırış yaşlı gənclər arasında “Vətənin müdafiəsinə hazıram!” devizi altında keçirilən poliatlon çoxnövçülük üzrə rayon birinciliyinə yekun vurulub. On məktəb komandasının iştirakı ilə keçirilən yarış Şərif kənd 1 nömrəli tam orta məktəbin komandasının qələbəsi ilə başa çatıb. Qazma və Tülü kənd 1 nömrəli tam orta məktəblərin komandaları müvafiq olaraq ikinci, üçüncü pillədə qərarlaşıblar. Gənclər və İdman, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışlar gəncləri ordu sıralarına hərbi xidmətə hazırlamaq, onları Vətənə məhəbbət ruhunda tərbiyə etmək məqsədi daşıyır. Tülü kənd 1 nömrəli tam orta məktəbin idman meydançasında keçirilən birincilikdə iştirakçılar 100 və 2000 metr məsafəyə qaçma, turnikdə dartınma və qumbara atma yarışlarında qüvvələrini sınayıblar. Qalib komandalar mükafatlandırılıb.

* * *

Astara şəhər 3 saylı tam orta məktəbdə “Vətənin müdafiəsinə hazıram” devizi altında poliatlon çoxnövçülüyü üzrə Astara rayon çempionatı keçirilib. Yarışın keçirilməsində əsas məqsəd çağırışçı gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, müxtəlif növlər üzrə ən güclüləri müəyyənləşdirmək və rayonun yığma komandasını təsis etməkdən ibarət olub.

Çempionatda yeddi məktəbin komandası dörd növ (100 metr məsafəyə qaçış, 2000 metr məsafəyə kross qaçışı, turnikdə dartınma və qumbaraatma) üzrə güclərini sınayıb. Gərgin idman mübarizəsinin yekununda Suparıbağ kənd, şəhər 3 saylı və 2 saylı tam orta məktəblərin komandaları ilk üç sırada qərarlaşıblar. Fəxri kürsüdə yer alan komandalara Astara rayon gənclər və idman idarəsinin diplom və fəxri fərmanları təqdim olunub.

Futbol

# Millimiz liderliyi ələ keçirə bilmədi



Futbol üzrə UEFA Millətlər Liqasının qrup mərhələsi çərçivəsində Azərbaycan milli komandası növbəti oyununu keçirib. Komandamız Torshavn şəhərindəki "Torsvollur" stadionunda Farer Adaları ilə qarşılaşıb. Rusiyalı baş hakim Aleksey Yeskovun idarət etdiyi oyunun 28-ci dəqiqəsində Azərbaycan millisi hesabı açıb. Matçda Riçard Almeyda fərqlənib. İlk hissə millimizin 0:1 hesablı qələbəsi ilə başa çatıb. Matçın 67-ci dəqiqəsində Dmitri Nazarov hesab arasındakı fərqi artırıb - 0:2. Oyunun 86-cı dəqiqəsində Riçard Almeyda Farer Adalarının qapısına təyin olunmuş 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirərək komandamızın üstünlüyünü 3 topa çatdırıb. Beləliklə, millimiz səfərdə Farer Adalarına 0:3 hesabı ilə qalib gəlib.

Azərbaycan millisi oktyabrın 14-də UEFA Millətlər Liqasının qrup mərhələsi çərçivəsində növbəti oyununu keçirib. Komandamız Bakı Olimpiya Stadionunda Malta yığmasını qəbul edib. Oyunda hesabı 37-ci dəqiqədə maltalı futbolçular açıblar. Belə ki, Rouen Muskat komandasını hesabda önə çıxarıb. Birinci hissənin sonunadək hesab dəyişməyib. Qarşılaşmanın 53-cü dəqiqəsində Azərbaycan millisi hesabı bərabərləşdirib. Mahir Mədətovun ötürməsini Araz Abdullayev baxımlı qolla tamamlayıb və bu, oyunda vurulan sonuncu qol olub. Beləliklə, Azərbaycan-Malta oyununda qalib müəyyənləşməyib - 1:1.

Qrupun digər oyununda isə Farer Adaları yığması Kosovo millisini qəbul edib və görüş 1:1 hesabı ilə başa çatıb.

Dörd turdan sonra Qurban Qurbanovun yetirmələri 6 xalla qrupda ikinci pillədə qərarlaşıblar.



Kosovo 8 xalla birinci, Farer Adaları 4 xalla üçüncü, Malta isə 2 xalla sonuncu yerdədir.

Millimiz növbəti oyununu noyabrın 17-də Bakıda Farer Adaları yığmasına qarşı keçirəcək.

Basketbol

## "Təhsil liqaları"na start verildi

Təhsil Nazirliyi və Azərbaycan Basketbol Federasiyasının dəstəyi, "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Texniki Universitetinin İdman Kompleksində 2018-2019-cu illər mövsümü üzrə "Təhsil liqaları"na start verilib.

13 yaşınadək (U-13) və 15 yaşınadək (U-15) basketbolçulardan ibarət komandalar arasında keçirilən "Təhsil liqaları"nın məqsədi yaş qrupları üzrə perspektivli basketbolçuların aşkar edilməsi, onların oyun təcrübəsinin artırılması və yığma komandaların müəyyənləşdirilməsindən ibarətdir.



Qeyd edək ki, hər iki yaş qrupu üzrə liqalarda idman məktəblərinin, müxtəlif idman təşkilatlarının 24 komandası mübarizə aparır.

İki dövrədən ibarət olan liqaların oyunları 2019-cu ilin iyun ayında başa çatacaq.

Mövsümün sonunda liqalar üzrə ilk üç yeri tutan komandalar diplom, kubok, medallarla mükafatlandırılacaq, müxtəlif nominasiyalar üzrə seçiləcək basketbolçulara xüsusi mükafatlar veriləcək.

Voleybol



## Millimiz dünya çempionatında mübarizəni dayandırdı

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin Yaponiyada keçirilən dünya çempionatındakı mübarizəsi başa çatıb.

Komandamız çempionatın ikinci qrup mərhələsindəki sonuncu oyununda Bolqarıstan voleybolçularına 0:3 (19:25, 20:25, 20:25) hesabı ilə məğlub olub. Bu nəticədən sonra ikinci qrup mərhələsində keçirdiyi dörd görüşün hamısında uduzan voleybolçularımız qrupu sonuncu pillədə başa vurublar.

Xatırladaq ki, milli komandamız birinci qrup mərhələsində "C" qrupunda mübarizə aparıb. Həmin qrupda müvafiq olaraq ilk dördlükdə qərarlaşan ABŞ, Rusiya, Tailand və Azərbaycan yığmaları növbəti mərhələyə yüksəlmişdilər. Koreya Respublikası ilə Trinidad və Tobaqo voleybolçuları isə qrupda qalmışdılar.

Dünya çempionatına oktyabrın 20-də yekun vurulacaq.

*  *  *

Azərbaycan voleybolunun inkişafında mühüm xidmətləri olan, ölkə voleyboluna yüksək nailiyyətlər qazandıran milli komandamızın baş məşqçisi Faiq Qarayev məşqçilik karyerasını başa vurub.

59 yaşlı təcrübəli mütəxəssis səhhətində yaranan ciddi problemlə əlaqədar bu barədə qərar qəbul edib.

Milli komandamızı 4 dəfə dünya, 7 dəfə Avropa çempionatına yüksəldən, yığma və klubla bir sıra turnirlərdə uğurlara nail olan dünya şöhrətli çalışdırıcı bu idman növünün daha da inkişafı üçün fəaliyyətini davam etdirəcək. Faiq Qarayev Azərbaycan Voleybol Federasiyasının birinci vitse-prezidenti kimi komandalarımıza və gənc idmançılara məsləhətlərini verəcək.

Ölkə voleybolunda xüsusi izi olan Natalya Məmmədova da bundan sonra yığmanın heyətində yer almayacaq. O, bundan sonra əsas komandanın formasını geyinməyəcəyini açıqlayıb. N.Məmmədova bu qərarını heyətdə gənc voleybolçulara yol açmaq üçün qəbul etdiyini bildirib. Karyerasını Qazaxıstanda davam etdirəcək ulduz voleybolçu Yaponiyada millinin üzvləri ilə vidalaşıb.



*REDAKSİYANIN POÇTUNDAN*

## İdmana həsr olunmuş ömür



Namazov İsa Məmməd oğlu 1960-cı il oktyabr ayının 18-də Qazax şəhərində anadan olub. Təhsilini Qazax şəhər Səməd Vurğun adına orta məktəbdə alıb. Yeniyetmə yaşlarında sərbəst güləş, yunan-Roma güləşi, əlbəyaxa döyüş, boks idman növlərində şücaət göstərərək, rayon birinciliklərində mükafatçılar sırasında yer alıb. 1975-ci ildə Tofiq Bəhramov adına stadionun idman zalında təşkil olunan Ümumittifaq çempionatında iştirak edib. İsa Namazov bu yarışda birinci yerə layiq görülməklə yanaşı Azərbaycanın yığma komandasına da dəvət alıb.

O, ölkə hüdudlarındandan kənarda da mükafatlara layiq görülüb. Belə ki, Soçi, Tallin şəhərlərində keçirilən yarışlarda dəfələrlə fəxri kürsüdə yer tutub. 1979-cu ildə Ukraynanın Lvov şəhərində keçirilən yeniyetmələrin SSRİ birinciliyində 48 kq çəki dərəsində qızıl medala layiq görülüb. 1980-cı ildə Ehtiyat Əmək Qüvvələri İdman Cəmiyyətinin SSRİ birinciliyində yeniyetmələr və gənclər arasında keçirilən yarışda qüvvəsini sınayıb. 1981-ci ildə birincilik uğrunda yarışlarda ciddi zədə alaraq, idman karyerasını yekunlaşdırıb.

Həmin ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnsitutunun idman fakültəsini əla qiymətlərlə bitirərək, Qazax rayonuna təyinat alıb. Karyerasını məşqçi-müəllim kimi davam etdirib.

Onun yetirmələri - keçmiş SSRİ İdman Ustaları İsmət Nəsirov və digərləri Respublika Beynəlxalq yarışlarında yüksək yerlərə sahib olublar.

İsa müəllim 1985-ci ildən indiyə qədər 4 dəfə Azərbaycan Gənclər və İdman Nazirliyinin 1-ci kateqoriyalı məşqçi-müəllimi fəxri adına layiq görülüb. İdmanın o cümlədən güləşin inkişafında xidmətlərinə görə 1980-cı idə SSRİ İdman Ustası, 1991-ci ildə Respublika dərəcəli hakim, 1992-ci ildə Azərbaycan Respublikasının Dövlət Bədən Tərbiyəsi və İdman əlaçısı adına layiq görülüb. İdmanla yanaşı, jurnalistikaya da həvəsi olan İsa Namazov 1991-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Onun idman mövzusunda yazdığı məqalələr bir çox mətbuat orqanlarında, xüsusilə "Olimpiya dünyası" qəzetində dərc olunub.

İsa Namazov hazırda Qazax rayon Təhsil şöbəsinin nəzdindəki Uşaq-Gənclər Şahmat Məktəbində məşqçi vəzifəsində çalışır.

O, Azərbaycan Əlbəyaxa Döyüş Federasiyasının, Qazax rayon peşəkar "Göyəzən" futbol klubunun mətbuat xidmətlərinin rəhbəridir.

***P.Ağakişiyev,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## Ağstafada açıq birincilik keçirilib

Bu günlərdə Ağstafa rayonunda Dağkəsəmən kənd 1 saylı tam orta məktəbinin idman zalında uşaq və yeniyetmələr arasında yunan-Roma güləşi üzrə açıq birincilik keçirilib.

SSRİ idman ustası, Azərbaycanın Fəxri Bədən Tərbiyəsi və İdman işçisi Rafiq Qasımovun 80 illik yubileyinə həsr olunmuş birincilikdə Qazax, Şəmkir, Daşkəsən, Goranboy, Gəncə, Ağstafa habelə digər rayon, şəhər və kəndlərdən 200-ə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb. Yarışın açılış mərasimində Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Feyruz Həsənov, Əməkdar İdman Xadimi Ramiz Tağıyev, 7 saylı regional Güləş Federasiyasının baş katibi, Əməkdar Məşqçi Ağyət Rüstəmzadə, Federasiyanın Qərb zonası üzrə baş məşqçisi, Əməkdar məşqçi Mehman Allahverdiyev və digərləri çıxış edərək, idmançılara gələcək yarışlarda uğurlar arzulayıblar. Yarışda ilk üç yeri tutan güləşçilər rayon Gənclər və İdman İdarəsinin medal və diplomları, qiymətli hədiyyələri ilə mükafatlandırılıblar.

***İsa Namazov***

Xəbərlər

## Avropa kubokunun finalında iki medal

Portuqaliyanın paytaxtı Lissabonda keçirilən güllə atıcılığı üzrə Avropa kubokunun final yarışları başa çatıb. Qitə birinciliyində 25 metr məsafəyə kiçik çaplı tapançadan atəşaçma yarışlarında ölkəmizi Ruslan Lunyov təmsil edib. IV İslam Həmrəyliyi Oyunlarının beşqat çempionu final yarışlarında uğurla çıxış edərək ayrı-ayrı növlər üzrə 581 xalla qızıl və 573 xalla gümüş medal qazanıb.

Qeyd edək ki, Ruslan Lunyov dünya çempionatında 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma yarışlarında 582 xalla beşinci olub. O, bu nəticə ilə Tokio-2020-yə lisenziya qazana bilməsə də, dünya reytinqində xeyli irəliləyərək 93-cü pillədən 10-cu yerə yüksəlib. Həm 10, həm də 25 metr məsafələrə atəşaçma üzrə dünya reytinqindəki nəticələri onun gələn il Minskdə keçiriləcək II Avropa Oyunlarında iştirakına imkan verir. Belə ki, bu ilin sonunda dünya reytinqində ilk 24-lükdə qərarlaşan atıcılar Minsk-2019-da iştirak edə biləcəklər.

## Samboçularımız dünya birinciliyini beş medalla başa vurublar



Tbilisidə keçirilən yeniyetmə və gənclər arasında sambo güləşi üzrə dünya birinciliyinə yekun vurulub. Yarışların son günü gənclər arasında Eyvaz Baxşıyev (57 kq) qızıl medal qazanaraq dünya birinciliyinin qalibi olub. Yeniyetmələrin mübarizəsində isə Hüseyn Hüseynov (56 kq) üçüncü yerə sahib çıxıb.

Qeyd edək ki, yarışların ilk iki günündə gənclər arasında Fuad Məmmədov (62 kq) gümüş, yeniyetmələrdə Vilayət Bayramov (60 kq), Emin Haqverdiyev (65 kq) və Toğrul Salmanov (87 kq-dan yuxarı) bürünc medal qazanıblar.

Samboçularımız yarışda milli komandanın baş məşqçisi Bəxtiyar Hacıyevin, yeniyetmə və gənclərdən ibarət yığmanın baş məşqçisi Yaqub Abdullayevin rəhbərliyi ilə çıxış ediblər.

DÜNYA İDMANI

## Lebron Ceyms kimi bəyənir?



“Leykers” klubunun forvard oyunçusu Lebron Ceyms hesab edir ki, azarkeşlər yeni oyunçular olan Kayl Kuzma və Lens Stivensonu sevəcəklər.

“Kuzma və Lens bir müddət sonra azarkeşlərin sevimlisinə çevriləcəklər. Bunu hətta indidən görmək mümkündür. Məsələn, top Lensin əlinə keçən kimi zalda canlanma başlayır.

Lens Stivinson çox gözəl oynayır. O, basketbolu sevir, onunla nəfəs alır. Meydana çıxmaqla insanlara enerji, ruh yüksəkliyi bəxş edir. Bu isə bizim işdə vacib şərtdir” , - deyə məşhur basketbolçu bildirib.

## Tamah onlara baha başa gəldi

Tailanddan olan beynəlxalq dərəcəli üç tennis hakimi ömürlük olaraq işdən, ümumiyyətlə, peşəkar turnirlərdə iştirak etməkdən uzaqlaşdırılıb.

Anuça Tonqplyu, Alisit Promçay və Çitçay Cpililay Beynəlxalq Tennis Federasiyasının (İTF) turnirləri zamanı etdikləri dələduzluq əməllərinə görə cəzalandırılıblar. Adıçəkilən hakimlər turnirlərin təşkilindən şəxsi qazanc əldə etdiklərini etiraf ediblər.

## Titulunu qoruya bildi

Boks üzrə yarımağır çəki dərəcəsində İBF çempionu Artur Beterbiev dördüncü raundda rəqibini mübarizədən kənarlaşdırıb.

Rusiyalı rinq ustası ikinci raundda nokdauna düşsə də, döyüşün gedişini öz xeyrinə dəyişə bilib və titulunu qoruyub.

Onun rəqibi Kallum Conson karyerasında ilk dəfə məğlubiyyət acısı yaşayıb.

## Hədiyyə briliyiant üzükdür

Futbol üzrə Fransa yığmasının üzvü Pol Poqba səxavətliliyi ilə azarkeşlərini heyran qoyub.

“Mançester Yunayted” komandasının yarımmüdafiəçisi son mundialda qazanılan qələbəyə görə yığmada birlikdə çıxış etdiyi futbolçulara hədiyyə vermək qərarına gəlib. 25 yaşlı oyunçu komanda yoldaşlarına Fransanın bayrağının rənglərini əks etdirən brilyant üzük bağışlayacaq. ABŞ-da xüsusi olaraq hazırlanacaq üzüklər komandanın məşqçilər heyətində olan insanlara da veriləcək.



## Qadın pilotların çempionatı 2019-cu ildə başlayacaq

Formula-1-də iştirak etmək istəyən qadın pilotlara kömək məqsədilə keçirilən “W Series” beynəlxalq çempionatına 2019-cu ildə start veriləcək. Formula-1 yarışlarının keçmiş pilotu şotlandiyalı Devid Kulthard bu çempionata dəstək verəcək. Çempionatın mükafat fondu 1,5 milyon dollar təşkil edəcək, qalib isə 500 min dollar alacaq. Altı mərhələdən ibarət olacaq bu yarışlar may ayında başlayacaq.

Pilot qadınlar çempionatda iştirak etmək üçün ödəniş etməyəcək və onları Kulthardla yanaşı, Formula-1 komandasının keçmiş meneceri Deyv Rayan və konstruktor Edrian Nyui seçəcəklər.

D.Kulthard deyib: “Biz qadınların kişilərlə bərabər səviyyədə rəqabət aparacağına əminik. Hazırda qadın pilotlar “GP3”, yaxud Formula-3 səviyyəsinə çatmaq üçün məşq edirlər. Bundan sonra onların çempionatda iştirakı maliyyə vəsaitindən deyil, bacarıqdan asılı olacaq. “W Series”in keçirilməsi məhz bu baxımdan lazımdır”.



## Maqnus Karlsen “Liverpul”un müdafiəçisi ilə şahmat oynadı

Şahmat üzrə hazırkı dünya çempionu norveçli Maqnus Karlsen şahmat tacı uğrunda matçın astanasında İngiltərənin “Liverpul” futbol klubunun müdafiəçisi Trent Aleksandr-Arnoldla dostluq oyunu keçirilib. Mançesterdə keçirilən qarşılaşma “World Chess” və FİDE-nin kibertəhlükəsizlik üzrə rəsmi tərəfdaşı olan “Kasperski laboratoriyası” tərəfindən təşkil edilib.

Trent şahmat taxtası üzərində baxışların izlənilməsinin yeni texnologiyası sayəsində Karlsenin gözlərinin hərəkətini müşahidə edə bilib. Beləliklə, futbolçu rəqibin gözlərinin hərəkətini izləyib növbəti gedişini fikirləşə bilərdi.

Buna baxmayaraq, Trenti məğlub etmək üçün hazırkı çempiona cəmi 17 gediş və 5 dəqiqə kifayət edib.

Aleksandr-Arnold oyunu belə şərh edib: “Şahmat da futbol kimi strategiya və vərdişlər üzərində qurulub və bu cəhətdən çox oxşardırlar. Öz mövqeyini dəyərləndirmək, nə vaxt hücuma keçmək, eyni zamanda, öz müdafiəni yaddan çıxarmamaq vacibdir. Şahmat fiqurları da oyunçular kimi müxtəlif mövqeyə, xarakter və keyfiyyətə malikdirlər. Əgər onları oyunda nəzərə alsaq, yaxşı nəticə əldə etmək mümkündür. Əlbəttə ki, mən artıq 8 il ərzində çempion titulunu qoruyub saxlayan Maqnusun səviyyəsində oynaya bilmirəm. Lakin bu, maraqlı oyun və unudulmaz təcrübə idi”.

Maqnus Karlsen deyib: “Bu, əla partiya idi, Trent yaxşı oynayır. O, hələ nələrisə öyrənməlidir. Lakin qəti deyə bilərəm ki, Trent istedadlıdır”.

Çempion titulu uğrunda matçda Karlsenin rəqibi amerikalı qrossmeyster Fabiano Karuana olacaq. Noyabrın 9-da başlayacaq oyun vaxta klassik nəzarətlə 12 partiyadan ibarət olacaq. Zərurət yaranarsa tay-breyk keçiriləcək.

## *“İnter” Modriçdən əl çəkmir*

İtaliyanın “Corriere dello Sport” saytının yaydığı xəbərə görə, xorvatiyalı futbolçunun komandasını dəyişmək barədə fikrində yenilik yoxdur. “Kral klubu”nun prezidenti Florentino Peres və baş məşqçi Xülyen Lopeteqinin münasibətindən narazı qalan 33 yaşlı oyunçu başqa kluba keçmək istəyir. “Real” rəhbərliyi isə Modriçlə yollarını ayırmağa tələsmir. Madrid klubu yalnız layiqli əvəzləyici tapacağı halda onu buraxmağı düşünür.

Qeyd edək ki, mövsümün əvvəlində “İnter” Modriçi heyətinə qatmaq istəsə də, Madrid “Real”ı bu futbolçusunu satmaqdan imtina etmişdi.



## “Qərar vermək çox çətindir”

“Çelsi”nin futbolçusu Eden Hazard “Real”a keçmək istədiyini açıqlayıb.

İngiltərə mətbuatına açıqlama verən Hazard deyib: “Real” dünyanın ən güclü komandasıdır və bu klubda oynamaq uşaqlıq arzumdur. Bu gün bu haqda danışmaq istəmirəm. Ancaq bu barədə tezliklə sizinlə söhbət edəcəyik.

Dünya çempionatından sonra getmək istədiyimi dedim. Çünki yaxşı bir turnirdən sonra karyeramı başa vurmaq fikrim vardı. Mən hər şeyin ən yaxşısın əldə etmək istəyirəm. Nə olacağını görəcəyik. Bəzən fikirlərim qarışır. Bir səhər yuxudan oyanıram və getmək istədiyimi düşünürəm, növbəti gün isə qalmaq istəyirəm. Qərar vermək çox çətindir”.

## Dünyanın ən sürətli adamı dopinq testinə çağırıldı




Məşhur yamaykalı atlet Useyn Bolt Avstraliya Dopinqlə Mübarizə Agentliyi tərəfindən dopinq testinə çağırılıb. Bu barədə o, şəxsi “İnstaqram” hesabında məlumat verib. Hələlik futbolçu kimi çıxış etdiyi “Sentral Kost Mariners” klubu ilə peşəkar müqavilə bağlamadığını bildirən Bolt nə üçün dopint-testdən keçməli olduğunu başa düşmədiyini deyib: “Dostlar, mən futbolçu olmaq üçün atletika karyeramı bitirmişəm. Hələ peşəkar müqavilə bağlamamışam. Sizcə, dopinq-test verməliyəm? Agentliyin əməkdaşından bunun səbəbini soruşdum, mənə dedilər ki, sən yüksək səviyyəli idmançısan. Ona görə də bu testdən keçməlisən. Mən də dedim, yaxşı, necə istəyirsiniz”. Qeyd edək ki, atletika üzrə 8 dəfə Olimpiya çempionu olmuş idmançı bir neçə gün əvvəl Sentral Kost Mariners”in “Makartur Saut Vest Yunayted”i 4:0 hesabı ilə məğlub etdiyi yoxlama oyununda meydana çıxıb və ilk qollarını vurub.

## Ulduz tennisçi zərərçəkənlərə sığınacaq verdi

Kişilər arasında dünyanın 1 nömrəli tennis ustası Rafael Nadal Malyorkada baş verən daşqın zamanı zərərçəkənlərə yardım göstərib.

Tanınmış idmançının tennis akademiyası su altında qalan evlərin sakinlərini öz qoynuna alıb.

Rafael Nadal digər könüllülərlə birlikdə zərərçəkənlərə akademiyada yerləşmək üçün yardım edib və hətta daşqının gətirdiyi zir-zibili təmizləyib.

Məlumat üçün bildirək ki, İspaniyanın Malyorkadakı daşqın zamanı 200 nəfər evsiz qalıb, 4 nəfər isə həyatını itirib.

## Çempion təklifi qəbul etdi

UFC üzrə çempion kəməri uğrunda mübarizədə Konor Makqreqora qalib gələrək, titulunu qoruyan Həbib Nurməhəmmədov “Qalatasaray” klubundan gələn təkliflə razılaşıb.

İstanbul klubunun forması ilə şəkilləri olan döyüşçü "Qalatasaray"ın Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda "Türk Telekom Arena"da "Şalke" ilə keçirəcəyi oyuna dəvət alıb. Həbib klubun dəvətinə müsbət cavab verib və qarşılaşmanı tribunadan izləmək üçün İstanbula yollanacaq.

Qeyd edək ki, sözügedən matç oktyabrın 24-də keçiriləcək.




Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19